


**İsmayılov Ceyhun İqbal oğlu**

Ceyhun İqbal oğlu İsmayılov 1996-cı il sentyabrın 25-də Tovuz şəhərində anadan olub. 2003–2006-cü illərdə Tovuz şəhərində N.Tusi adına məktəbdə təhsil alıb, 2014-cü ildə Gəncə şəhərində 28 saylı tam orta məktəbi bitirmişdir. 2014-2019-ci illərdə Kiyev şəhərində Ali məktəb bitirmişdi.

Ceyhun İsmayılov 2019–2020-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Ceyhun İsmayılov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq iştirak edib. Ceyhun İsmayılov Füzuli döyüşləri zamanı şəhid olub. 30 oktyabr 2020-ci il tarixdə Tovuz şəhərində dəfn olunub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamları ilə əsgər İsmayılov Ceyhun İqbal oğlu “Vətən uğrunda”, “Füzulinin azad olunmasına görə”, “İgidliyə görə” medalları ilə təltif edilib.